# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №09 (49) • 02.05.2011


AzadliqRadiosu.az


**Где Ахмадинежад?** səh.3

**İctimai Palata növbəti mitinq qərarını təxirə salıb** səh.4

**Vəkil Elmar Hüseynovun qətli ilə bağlı yeni məqamları açıqlayır** səh.5

Cabbar Savalanlı: **«Bilsəydim cibimdə narkotika var...»** səh.6

**BMT-də çıxış edən ən gənc azərbaycanlının həbsi** səh.10

Gülər Əhmədova: **«Problem varsa, onu demək lazımdır»** səh.11

**Nə yazıq ki, Əli Kərim də öldürülmüşdü...** səh.13


## Azərbaycandan Türkiyəyə 17 milyard dollar



səh.12

**Türkiyə və Azərbaycan "Şahdəniz-2" təbii qazının Avropaya nəqlində də razılaşdılar**

## "Vergi əməkdaşı bizdən əvvəlcə 20 min manat istədi"

«Audit İaşə şöbəsindən bizə dedilər ki, 20 min manat pul verməlisiniz. Biz də dedik ki, sizə verməyə pulumuz yoxdur» Bakıdakı «Dəli Kür» kafesinin nümayəndəsi Rafiq Məsimov iddia edir ki, bu ilin əvvəlindən o qədər də böyük olmayan kafelərində Vergilər Departamentinin Audit İaşə şöbəsi yoxlamalara başlayıb.

səh.9

***Sonuncu xəbərdarlıq***




**Qəddafinin oğlu öldürüldü** səh.3

**İlham Əliyev «Twitter»dən necə istifadə edir?** səh.8

**Obama komandasında inqilablara fərqli baxış var** səh.14

# ADNA-dakı qətliamın ildönümü qeyd olundu

**Aprelin 30-da bir qrup gənc Azərbaycan Dövlət Neft Akademiyasında (ADNA) baş verən qətliamın ikinci ildönümü ilə əlaqədar anım mərasiminə qatılıb. Onlar Akademiyanın pilləkənlərinə gül düzüblər. Saat 11:00-da keçirilən anım mərasimi polis müdaxiləsi olmadan baş tutub. Anım mərasimində iştirak edən deputat Fuad Muradov bildirib ki, bütün dünyada belə hadisələri cəmiyyəti sarsıtmaq, qorxutmaq, onu başqa bir yola aparmaq üçün həyata keçirirlər:«Belə hadisələrin baş verməməsi üçün ayıq olmalıyıq. Cəmiyyət belə hadisələrə nə qədər həssas olsa, təbii ki, bu, baş verməyəcək».**


Anım mərasimi, 30 aprel 2011

Amma səhər tezdən ADNA yaxınlığında və 28 May metrosu ətrafında içində polislər olan 6 avtobus dayanıb, əraziyə çox sayda polis və mülkigeyimli şəxslər nəzarət edib. Saat 14:00-da müxalifyönlü gənclər təşkilatları da ADNA qətliamında öldürülənləri yad edib. AXCP Gənclər Təşkilatının sədri Əbülfəz Qurbanlı 2 il əvvəl öldürülənlərin hökumət səviyyəsində anılmamasını pisləyib. «Gül bayramını qeyd edirlər, ancaq günahsız ölən gəncləri hökumət səviyyəsində qeyd edən olmadı» - deyə o, bildirib.

Kənardan anım mərasimini izləyən polis müdaxilə etməyib. Polis əynində «30 Aprel - unudulmaz dəhlizlərdə canlar getdi», «30 aprel ADNA terror» yazısı olan bir nəfər məktəblini ərazidən uzaqlaşdırıb. Aprelin 30-da ADNA qətliamının ikinci ildönümü zamanı gənc fəallardan Amil Kərimovu Cəfər Cabbarlının heykəli yaxınlığında polis saxlayıb. Bu barədə gənc fəallardan Əli Əliyev məlumat verib. Daxili İşlər Nazirliyi mətbuat xidmətinin şöbə rəisi Orxan Mansurzadə isə AzadlıqRadiosuna bildirib ki, bölmədə A. Kərimov barəsində xırda xuliqanlıq maddəsi ilə protokol tərtib olunub. İzahat alınandan sonra o, sərbəst buraxılıb.

# Ekspertlər Kaydanaunun həssas dövrdə gəldiyini düşünürlər


Tina Kaydanau

**İLHAM ƏLİYEV TİNA KAYDANAUNU QƏBUL EDİB**

Aprelin 25-də gerçəkləşən görüşdə Bakıda səfərdə olan ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavininin köməkçisi Tina Kaydanau ilə ikitərəfli münasibətlər, Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Bundan başqa, regional məsələlər də müzakirə edilib.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov da ABŞ-ın dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Tina Kaydanaunu qəbul edib. Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin AzadlıqRadiosuna verdiyi məlumata görə, xanım T. Kaydanau ABŞ-ın Azərbaycanla əməkdaşlığa böyük önəm verdiyini, ölkəsinin Azərbaycanla münasibətlərin daha da inkişaf etdirilməsində maraqlı olduğunu qeyd edib. O bildirib ki, ABŞ ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi Dağlıq Qarabağ münaqişəsinin tez bir zamanda həll olunmasını istəyir və bu istiqamətdə öz töhfəsini verməyə hazırdır. Tina Kaydanau əlavə edib ki, ölkəsinin münaqişənin nizamlanmasında müsbət irəliləyişin əldə olunmasına tərəfdardırlar.

Bu, Tina Kaydanaunun Azərbaycana ikinci səfəri barədə rəsmi məlumatlardır. O, aprelin 25-də həm də vətəndaş cəmiyyətinin nümayəndələri ilə görüşüb. Bu barədə Azərbaycan Naminə İctimai Forumun prezidenti Eldar Namazov məlumat verib. O, mətbuata qapalı olan görüş barədə yalnız bunları deyib:

**SON HƏBSLƏR KAYDANAUNUN NƏZƏRİNƏ ÇATDIRILIB**

- Bu görüşdə daha çox müzakirə olunan məsələ demokratik islahatlarla bağlı vəziyyət, insan haqlarının və vətəndaş cəmiyyətinin durumu idi. Eldar Namazov deyir ki, onlar son həbslərlə, xüsusilə gənc fəal Bəxtiyar Hacıyevin Gəncədə həbs edilməsi ilə bağlı məsələləri də amerikalı məmurun diqqətinə çatdırıblar

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu isə deyir ki, Tina Kaydanaunun son iki səfəri arasındakı vəziyyət təhlil olunsa, münasibətlərin heç də ürəkaçan olmadığını görmək olar. Fundamental azadlıqlar sahəsində hələ də Azərbaycan öyünə bilmir və bu üzdən də ABŞ kimi tərəfdaşının tam dəstəyini almır. Ekspert buna misal kimi, prezident İlham Əliyevin Obama administrasiyası tərəfindən hələ də rəsmi dəvət almadığını göstərir.

- Amerikalı rəsminin Azərbaycana səfəri çox həssas məqama təsadüf edir. Bir tərəfdən ərəb inqilabları, bir tərəfdən də Azrəbaycanda müxalifətin canlanması,


Eldar Namazov

hakimiyyətin müxalifətlə dialoqdan qaçması, müzakirə olunmalı məsələlər çoxdur.

Tina Kaydanau Azərbaycana sonuncu dəfə 2010-cu il sentyabrın 8-də, parlament seçkilərindən əvvəl gəlmişdi.

***Səadət Akifqızı***

# Konqresmen Azərbaycanı ABŞ-ın qətiyyətli müttəfiqi adlandırır

## "Amerika xalqı demokratik təsisatları olan ölkələrlə dost olmaq istəyir"


Bill Shuster

**"Hər şeydən əvvəl, məncə, Azərbaycan hökumətinə, prezidentinə təşəkkür etmək gərəkdir ki, 1990-cı illərdə Sovet İttifaqından çıxandan sonra Azərbaycan Amerikanın böyük dostu və müttəfiqi olub". Bunu Azərbaycana səfərdən öncə yüksək səviyyəli Amerika nümayəndə heyətindən respublikaçı konqresmen Bill Shuster bildirib. Konqresmen Shuster və nümayəndə heyətinin digər üzvü demokrat konqresmen Christopher Murphy Azərbaycan və Əfqanıstana səfərləri öncəsi AzadlıqRadiosunun Mərkəzi Xəbər Xidmətinə müsahibə veriblər.**

Həm də Konqresdə Azərbaycan üzrə işçi qrupunun həmsədri olan Shuster deyib: "Onlar dünyada bizim ən qətiyyətli müttəfiqlərimizdən olublar. Azərbaycan cənubda İran, şimalda isə Rusiya ilə qonşudur. Bu, çox-çox çətin bir qonşuluq şəraitidir. Və belə bir şəraitdə onlar hələ də Amerikaya bir dost və müttəfiq kimi baxırlar. Bundan başqa, orada olarkən hökumət rəsmiləri ilə görüşəcəyəm və ümid edirəm ki, prezidentlə də görüşümüz olacaq. Mən demokratik təsisatların normal fəaliyyət göstərməsi, seçkilərin azad və ədalətli keçirilməsi zərurətinə inamımı bir daha diqqətə çatdıracam. Çünki son nəticədə Amerika xalqı hansısa ölkəyə, o cümlədən müttəfiq ölkəyə bu meyarla qiymət verəcək.

Biz indi Yaxın Şərqdə baş verənləri görürük və Amerika xalqı demokratik təsisatları olan, insan haqlarına inanan, şəffaf hökumətləri olan ölkələrlə dost olmaq istəyir. Bütün bu məsələləri biz prezidentlə görüşdə dilə gətirəcəyik. Amma eyni zamanda görüşdə Amerikanın azərbaycanlılar kimi qətiyyətli müttəfiqlərinin olmasını yüksək qiymətləndirdiyini də ifadə edəcəyik".

# BVF Azərbaycanda ikirəqəmli inflyasiya gözləyir




**Beynəlxalq Valyuta Fondunun (BVF) yeni yayılan hesabatına görə, Azərbaycanın da daxil edildiyi Qafqaz və Mərkəzi Asiya regionu ölkələrində böhrandan sonra dirçəliş var. Sənədə görə, Azərbaycan, Qazaxıstan, Türkmənistan və Özbəkistanda iqtisadi artım 7 faiz olub. Amma regionun neft-qaz idxal edən başqa ölkələrində - Ermənistan, Qırğızıstan, Tacikistan və Gürcüstanda bu göstərici 4 faiz olub. Hərçənd ki, bu ölkələr də minerallar və metalın qiymətinin yüksək olmasından fayda götürüblər.**

Qafqaz və Mərkəzi Asiya regionu ölkələrində ümumi tədiyyə balansı bir qədər yaxşılaşıb. Amma hazırda Ermənistan və Gürcüstanda büdcə kəsirinin səviyyəsi yüksək olaraq qalır. Xüsusilə Azərbaycan və Qazaxıstanda valyuta ehtiyatları artır. Lakin bu regionun bütün ölkələri dalğalanan inflyasiya təhlükəsi altındadırlar.

BVF qeyd edir ki, 2011-ci ildə beynəlxalq bazarlarda yanacağın 18, ərzağın isə daha 15 faiz bahalaşması gözlənir. Region ölkələrində ümumi inflyasiya göstəricilərinin də əvvəl gözləndiyindən 3 faiz daha çox – 10 faiz olması gözlənir. Azərbaycan və Qazaxıstanda inflyasiya ikirəqəmli ola bilər. Fonda görə, həmin region ölkələrində yaxın gələcəkdə ərzaq qiymətlərinin artması və iqtisadi fəallığın zəifləməsi kimi problemlər yaşanacaq.

***Natiq Zeynalov***

# Qəddafinin oğlu öldürülüb

"Reuters" məlumat verir ki, NATO qoşunlarının hücumu zamanı Muammar Qəddafinin 29 yaşlı oğlu Seyfül Ərəblə yanaşı, 3 nəvəsi ölüb. Liviya hökumət sözçüsü Musa İbrahim açıqlamasında Seyfül Ərəbin 29 yaşında olduğunu və Almaniyada təhsil aldığını bildirib. Musa İbrahim hücum zamanı Muammar Gaddafinin həyat yoldaşıyla birlikdə evdə olduğunu, ancaq hər ikisinin hücumdan zərər çəkmədən xilas olduğunu deyib. Liviya müxalifəti ölkə lideri Müammar Qəddafinin atəşkəs təklifini rədd etmişdi. Onlar «kompromis dövrünün keçdiyini» deyiblər.



Aprelin 30-da dövlət televiziyası ilə çıxışında Qəddafi NATO-nun Liviyadakı hədəfləri vurnasına son qoyulması üçün alyansla danışıqlara hazır olduğunu dilə gətirib. Üsyançıların nümayəndəsi deyib ki, Qəddafiyə inam itib, o, əvvəllər atəşkəs etsə də, onu pozub.

# Где Ахмадинежад?

*Ахмадинежад (справа) и министр разведки Хейдар Мослехи, Тегеран, 9 декабря 2009*

Депутаты парламента Ирана задаются вопросом, "почему президент страны Махмуд Ахмадинежад пренебрегает своими государственными обязанностями?" По сообщениям, законодатели проведут на эту тему дебаты. Уже 8 дней глава государства не появляется в своем рабочем кабинете. Аналитики говорят о серьезных разногласиях между Ахмадинежадом и верховным лидером страны аятоллой Хаменеи - после того, как аятолла восстановил в должности уволенного президентом министра по делам разведки Хейдара Мослехи.

***Радио Свобода***

# İctimai Palata növbəti mitinq qərarını təxirə salıb



**İctimai Palata demokratik dəyişikliklər haqqında yol xəritəsi hazırlayıb, onu hakimiyyətə və xalqa təqdim etməlidir. Bunu AXCP sədri Əli Kərimli İctimai Palatanın aprelin 29-da keçirilən sessiyasında qarşıda duran vəzifələrdən danışarkən deyib.**

«Biz açıq şəkildə demokratiyaya keçidin mexanizmi ilə bağlı təkliflərimizi xalqa, ictimaiyyətə və hökumətə təqdim etməliyik. O baxımdan hesab edirəm ki, yaxın vaxtlarda İctimai Palata «Azərbaycanda demokratik dəyişikliklərin, köklü islahatların yol xəritəsi» şərti adı altında bir sənədi ictimaiyyətə açıqlamalıdır».

Əli Kərimli deyir ki, avtoritarizm şəraitində ölkədə demokratiyanı bərqərar etmək hər hansı bir siyasi partiyanın, ictimai hərəkatın deyil, bütövlükdə xalqın görəcəyi işdir. Ona görə də daha çox vətəndaşı bu mübarizəyə cəlb etmək üçün İctimai Palata öz fəaliyyətinin yeni istiqamətlərini müəyyən etməlidir.

### SABİQ YANĞINSÖNDÜRƏNLƏR İCTİMAİ PALATAYA ÜZV OLUB

Sessiyada İctimai Palataya daha 25 nəfər üzv qəbul olunub. Fövqəladə Hallar Nazirliyinin bir qrup sabiq əməkdaşı da quruma üzv olub. Bəyanatı imzalayan 17 nəfər uzun illər FHN yanında Yanğından Mühafizə İdarəsində çalışdıqlarını, hazırda təqaüdə çıxdıqlarını deyirlər. Təqaüdçülər illərlə dayandıqları ev növbələrinin ləğv olunduğunu və başqa hüquqlarının tapdandığını da qeyd edirlər.

Bundan sonra koordinasiya Şurasının təklifi ilə İctimai Palatanın Qadınlar Şurası yaradılıb. Qadınlar şurasına AXCP sədrinin müavini Gözəl Bayramlı sədr seçilib.

Həbslər, təzyiqlər və eləcə də saxlanılanlara işgəncə verilməsi kimi halların araşdırılması üçün yaradılan İctimai Təhqiqatlar Şurasına isə Vidadi İsgəndərli sədr seçilib.

Sessiyada bundan sonra İctimai Palatanın növbəti addımları barədə təkliflər səslənib. Müsavat Partiyasından Mustafa Hacılı deyib ki, İctimai Palatanın hakimiyyətdən qorxmadığını təsdiqləmək üçün elə bu iclasdaca növbəti mitinqin günü barədə qərar verilməlidir. «Mən təklif edirəm ki, may ayının 15-də növbəti mitinq keçirilsin».

Amma onun təklifi qəbul edilməyib.



Gözəl Bayramlı

Müsavat Partiyasının qərargahında bir neçə saat davam edən iclasda belə razılığa gəlinib ki, bu məsələdə qərarın verilməsi qurumun Koordinasiya Şurasına saxlansın. Koordinasiya Şurasının növbəti yığıncağı isə mayın 8-nə nəzərdə tutulub.

***İlqar Rəsul***

# SDİ 25 potensial siyasi məhbusun siyahısını açıqlayıb

Sülh və Demokratiya İnstitutu bəyanat yayıb. Bəyanatda deyilir ki, Azərbaycan hakimiyyəti məqsədyönlü siyasi repressiyalar həyata keçirir. Bunun sayəsində bu ilin əvvəlindən aprelin 25-dək 25 Azərbaycan vətəndaşına qarşı əsassız, qondarma cinayət ittihamları irəli sürülüb. Bəyanatda 25 potensial siyasi məhbusun siyahısı təqdim edilib. Onlar üç qrupa bölünüb

<u>Birinci qrup - gənc fəallar:</u>

1. **Cabbar Savalan** *(AXCP gənclər təşkilatının fəalı) AR CM-in 234.1-ci (qanunsuz narkotik saxlamaq) maddəsi ilə ittiham olunur;*
2. **Bəxtiyar Hacıyev** *(keçmiş deputatlığa namizəd) CM-in 321.1-ci (hərbi xidmətdən yayınma) maddəsi ilə ittiham olunur.*

<u>İkinci qrup - Azərbaycan İslam Partiyasının liderləri və üzvləri:</u>

1. **Mövsüm Səmədov** *(AİP lideri);*
2. **Vaqif Abdullayev** *(AİP sədr müavini);*
3. **Dəyanət Səmədov;**
4. **Firdovsi Məmmədrzayev;**
5. **Ruhulla Axundzadə** *(AİP Astara təşkilatının sədri);*
6. **Yusif Fəxrəddin oğlu Ələkbərov** *(AİP Gəncə təşkilatının sədri, barəsində axtarış elan olunub);*
7. **Fəramiz Abbasov** - *Masallı rayonunun Hil kəndinin axundu;*
8. **Zülfüqar Mikayılzadə.**

Yuxarıda sadalanan 8 nəfərin işi bir icraatda birləşdirilib. İcraatı Baş Prokurorluq və MTN-in müstəntiq qrupu həyata keçirir. Bu qrupa qarşı silah tətbiq etməklə cinayət hazırlamaq, hakimiyyəti zorla devirməyə cəhd ittihamları irəli sürülüb.

Gəncədə daha iki ruhani - Azər Cəbiyev və Fəxri İlyasov xuliqanlıqda ittiham olunur.

<u>13 nəfərdən ibarət üçüncü qrup 2 aprel mitinqinin iştirakçılarıdır:</u>

1. **Arif Hacılı** *(Müsavat Partiyası Mərkəzi İcra Aparatının sədri);*
2. **Fuad Qəhrəmanlı** *(AXCP sədrinin müavini, azadlıqda olsa da, hələ polisin nəzarəti altındadır);*
3. **Tural Abbaslı** *(Müsavat Partiyası gənclər təşkilatının rəhbəri);*
4. **Məhəmməd Məcidli** *(AXCP sədrinin müavini);*
5. **Sahib Kərimov** *(AXCP);*
6. **Babək Həsənov** *(AXCP);*
7. **Elşən Həsənov** *(Müsavat);*
8. **Ülvi Quliyev** *(bitərəf);*
9. **Zülfüqar Eyvazov** *(AXCP);*
10. **Arif Alışlı** *(AXCP);*
11. **Rüfət Hacıbəyli** *(Müsavat).*

Onlara qarşı ictimai asayişi pozmaq ittihamı irəli sürülüb.

Daha iki müxalifətçi - Müsavat Partiyasından Əhəd Məmmədli və AXCP-dən Şahin Həsənli qanunsuz döyüş sursatı saxlamaqda ittiham olunur.

# Vəkil Elmar Hüseynovun qətli ilə bağlı yeni məqamları açıqlayır



Adil İsmayılov

**Vəkil Adil İsmayılov AzadliqRadiosunun "İşdən sonra" verilişində mərhum jurnalist Elmar Hüseynovun qətli və istintaqın görünməyən tərəfləri barədə danışır**

***- İki nəfər Gürcüstan vətəndaşlarının söhbəti haradan çıxıb ortaya və bunların cinayətdə iştirakı nə dərəcədə sübut olunub?***

- Bu iki nəfərin haqqında olan məlumat sırf əməliyyat yolu ilə, telefon danışıqlarından əldə olunmuş məlumatlardır. Telefon danışıqları deyəndə, danışıqlar qeydiyyata alınıb. Yəni, fakt var. Amma danışığın mətni, orada nə danışıq olub, bu, heç kimdə yoxdur. Bu o halda olur ki, danışıqlara əvvəlcədən rəsmi və ya qeyri-rəsmi qulaq asılır. Əvvəla, bu qədər adama qulaq asmaq mümkün deyil, ikinci bir tərəfdən də, bu qədər bazanın özünü saxlamaq mümkün deyil. Danışıqların hamısının qeydiyyatı var. Kim kiminlə danışıb, nə qədər danışıb və həmin danışıq vaxtı harada olub. Elmar Hüseynovun işi ilə bağlı burda xarici mütəxəssislər də olub. Səhv etmirəmsə, Amerika, Türkiyə mütəxəssisləri olub burda. Xüsusi proqramlar var. Bu proqramlarla müəyyən edirlər ki, Elmar Hüseynov hadisə olan günü və hadisə olan gündən əvvəlki ərəfədə harada olub və bunun olduğu ərazidə nə qədər telefon var. Bu telefonlar haradasa toqquşur ya toqquşmur. Müəyyən olunur ki, eyni vaxtda həmin ərazidə hansı telefonlar olub nömrələrlə. Bu nömrələr müəyyən olunur və bir telefon nömrəsi istintaq əməliyyat qrupunun maraq dairəsinə düşür.

Həmin ərəfədə, yəni fevral ayının sonu - martın əvvəlində həmişə Elmar Hüseynovun telefonu ilə eyni ərazidə olan telefon müəyyən olandan sonra onun sahibi müəyyən olunur. Məlum olur ki, bu telefon nömrəsi, səhv etmirəmsə, Turqay Bayramov adlı şəxsə məxsusdur. Onu müəyyən edəndən sonra çağırırlar istintaqa ki, bu nədir, nə danışıqlardır? O da deyir ki, mənim bundan xəbərim yoxdur. Ümumiyyətlə, mənim belə nömrəli telefonum olmayıb və mən bu telefondan istifadə etməmişəm. O bildirir ki, bunun qohumları olub, Gürcüstandan gəliblər, qalıblar bunlarda, ev tutublar, kirayədə qalıblar. Bunlar ola bilsin ki, bunun pasportundan istifadə ediblər. Onda çıxır həmin o Gürcüstan vətəndaşları. Tahir Xubanov və Teymuraz Əliyev. Onların şəxsiyyəti, qaldıqları ev, Azərbaycana giriş və çıxışları müəyyən olunur. Məlum olur ki, bunlar yanvar və fevral ayında bir neçə dəfə Azərbaycana, yəni Bakıya gəlib gediblər. Onlar sonuncu dəfə Azərbaycanı mart ayının 3-də səhər saat 8:24-də *(Elmar Hüseynov qətlə yetirildiyi gecənin səhəri)* tərk ediblər. «Qırmızı körpü»dən. Bir maşın gətirib onları düşürüb ora və 5 nəfər olublar. Mənim üçün də bu qaranlıq qalır bir az. NƏYƏ GÖRƏ 5 ADAMIN YOX, YALNIZ BU İKİSİNİN SÖHBƏTİ GEDİR? Onların adı, familiyası da istintaqa məlumdur: Karsiya Arçil, Bakvadze Nudzar və Davrişov Serqo. Bu beş nəfərin hamısı Gürcüstan vətəndaşlarıdır, o axtarılan ikisi azərbaycanlıdır, bunlar gürcüdürlər. Bunların giriş-çıxışda adları var. Girişdə Xubanov tək gəlib, onların 4-ü isə fevral ayının 26-da gəlib. Martın 3-də isə hamısı bir yerdə çıxıb gediblər. İstintaqın əlində olan məlumatlar bunlardır. Belə olan halda, Gürcüstana müraciət etsələr, heç bir normal dövlətdə bu adamları adam öldürən kimi qəbul edib verməyəcəklər. Yəni, bunların əlində olan sübut bir dənə telefon danışıqlarıdırsa, heç kim onları verməyəcək Azərbaycana. Deməli, istintaq getməlidir burada. Burda olan ikinci məsələ ekstradisiya məsələsidir. Gürcüstan Konstitusiyasına görə, öz vətəndaşını başqa dövlətə vermir. Yəni, biz istəsək belə, Gürcüstan bundan sonra da vətəndaşını Azərbaycan dövlətinə, hətta Elmarı onların öldürdüyünü sübut etsək, yenə verməyəcəklər. Vəziyyətdən bir çıxış yolu var. Azərbaycan tərəfi müraciət etməlidir Gürcüstan tərəfinə. Əlində olan bütün sübutları təqdim edəcək Gürcüstan tərəfinə, Gürcüstan isə o adamların təqsiri varsa, onları öz dövlətində məhkum edəcək.

***Xədicə İsmayılova, Kamran Mahmudov***

# "Elmlər Akademiyası iki gün boş qalıb..."




**AzadlıqRadiosunun «İşdən sonra» proqramında filosoflar Əli Abbasov və Ağalar Məmmədov prezidentin Elmlər Akademiyasındakı çıxışını şərh edirlər**

Əli Abbasov:

- Mən ancaq prezidentin çıxışını oxudum və ümumiyyətlə demək olar ki, heç nə başa düşmədim. Biz orada olmamışıq. Akademiya demək olar ki, boş olub. Biz iki gün evdə qalmışıq. Ancaq mətni oxudum. Orada yazılmışdı ki, Azərbaycanda elm adamları elitadır. Amma bu elitanın vəziyyəti ilə bağlı mən bir şey anlamadım. Yəni ki, elitanın vəziyyəti dəyişiləcək ya dəyişilməyəcək?»

AzadlıqRadiosu:

- Siz dediniz ki, Elmlər Akademiyası iki gün boş qalıb. Bu nə deməkdir?

**Verilişi AzadlıqRadiosu.az saytından dinləyin**

# Cabbar Savalanlı: «Bilsəydim cibimdə narkotika var...»



**«AĞLI KƏSƏN ADAM NARKOTİKANI GİZLİ YERƏ QOYARDI»**

Bunu aprelin 29-da Sumqayıt Şəhər Məhkəməsində təqsirləndirilən şəxs qismində ifadə verən AXCP Gənclər Təşkilatının üzvü Cabbar Savalanlı dedi. O, ifadəsində göstərdi ki, sosial şəbəkədəki yazışmaların sabahı günü - fevralın 5-də əvvəl AXCP-nin Azərbaycan Demokrat Partiyasının qərargahında keçirilən yığıncağında, sonra Norveç İnsan Haqları Evində olub. Günün ikinci yarısı Sumqayıta – yaşadığı evə gələndə binanın girişində mülki geyimli şəxslər tərəfindən saxlanılıb. Onun deməsinə görə, qollarını buraraq maşına oturdublar və Sumqayıt Şəhər Polis İdarəsinə aparıblar. Cabbar Savalanlı ifadəsində göstərdi ki, idarəyə gətirildikdən sonra əvvəlcə ona bunun səbəbini deməyiblər.

İki saatdan sonra otaqlardan birinə aparıblar, orada üstünə baxış keçirəcəkləri ilə əlaqədar ciblərindəki əşyaları çıxarıb stolun üstünə yığmasını bildiriblər. Əvvəlcə şalvarının, pencəyinin ciblərindəki mobil telefonu, metro kartını və pulları çıxarıb. Əlini paltosunun ciblərinə aparanda sol cibdən ağ kağızda bükülü çıxardıb. Cabbar Savalanlı məhkəmədə dedi ki, həmin bükülünün tiryək olduğunu polis işçilərindən eşidib. Bükülünün cibinə necə qoyulmasından isə xəbəri olmayıb: «Mən şalvar geymişəm, pencək geymişəm, üstündən palto geymişəm. Ağlı kəsən adam narkotik maddəni paltonun cibinə qoymazdı. Gizli yerə qoyardı. Bir də ki, məni polisə gətirəndə qollarım açıq idi, bilsəydim cibimdə narkotika var, yolda çıxarıb atardım».

**«MƏNİ STOLA YIXIB BAŞIMA VURURDULAR Kİ, QOL ÇƏK»**

Cabbar Savalanlı dedi ki, onun üstünə baxış keçirilərkən otaqda olan iki hal şahidlərinin ikisi də içkili vəziyyətdə olub. Savalanlının sözlərinə görə, cibindən narkotik vasitənin çıxması ilə bağlı protokolu ona fiziki və psixoloji zor tətbiq etməklə imzaladıblar. Etirafedici izahatını və ifadəsini də təzyiq altında alıblar. «Mənə dedilər qol çək ki, hal şahidlərinin iştirakı ilə sənin üstünə baxış keçirilib və üstündən bu çıxıb. Qol çəkmədim, başladılar başıma vurmağa, məni stola yıxıb başıma vururdular ki qol çək, söyürdülər».

**«SƏNİN QƏLƏMİN YUXARIDAN SINDIRILIB»**

Cabbar Savalanlının ifadəsinə görə, polisdə ona deyiblər ki, sənin qələmin yuxarıdan sındırılıb, sənə kömək edə bilməyəcəyik. Yaxşılıqla boynuna al, boynuna almasan, onsuz da qanından narkotika çıxardacaqlar. Cabbar Savalanlı həbsini müxalifətçi gənc kimi fəaliyyət göstərməsi ilə əlaqələndirdi.

**«BİLSƏYDİM İŞ BU QƏDƏR UZANACAQ, ŞAHİDLİK ETMƏZDİM»**

Sonra məhkəmə narkotik vasitənin aşkar edilməsində hal şahidi kimi iştirak etmiş Məhərrəm İsmayılovu dindirdi. O, dedi ki, Sumqayıtdakı qul bazarında dayanır. Fevralın 5-də qul bazarından çıxıb evə gedərkən əməliyyat müvəkkili Faiq Mirzəyev ona təklif edib ki, bir əməliyyatda hal şahidliyi etsin. O da razılaşıb. Vəkillərin suallarına şahidin «yadımda deyil», «bilmirəm», «yaddaşım zəifdir» deməsi və üstəlik, onun latın qrafikasında yazıb-oxuya bilmədiyini söyləməsi vəkillərin etirazına səbəb oldu. Vəkil Anar Qasımov «Latın hərflərini tanımırsızsa, latın qrafikasıyla protokolu necə oxuyub imzalamısız?» sualına şahid cavab verdi ki, müstəntiq yazıb, oxuyub, o da imzalayıb. Cabbar Savalanlı isə məhkəmənin nəzərinə çatdırdı ki, Məhərrəm İsmayılov onun saxlanılmasında iştirak etməyib: «Mən bu adamı polis idarəsində üstümə baxış keçirilərkən görmüşəm».

Məhərrəm İsmayılovun «Bilsəydim iş bura qədər uzanacaq, heç şahidlik etməzdim» deməsi hakim qarışıq bütün zaldakıların gülüşünə səbəb oldu. Vəkil Anar Qasımov Məhərrəm İsmayılovun adının hal şahidi siyahısından çıxarılmasına dair vəsatət versə də, hakim vəsatəti təmin etmədi.

***Esmira Cavadova***

# İki zabit rüşvət ittihamı ilə həbs edilib

**Azərbaycan Müdafiə Nazirliyinin Şəmkir Hərbi Birləşməsinin iki zabiti rüşvət almaq ittihamı ilə tutulub. Bakı Hərbi Məhkəməsindən APA İnformasiya Agentliyinə bildiriblər ki, zabitlər Azər Xalıqov və Azər Hüseynov Cinayət Məcəlləsinin rüşvət alma maddəsi ilə təqsirli bilinirlər. Aprelin 27-də onlar barəsində Bakı Hərbi Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Onları əmlakları müsadirə olunmaqla 8 ildən 12 ilə qədər azadlıqdan məhrumetmə cəzası gözləyir.**

Hələlik adı çəkilən zabitlərin yaxınları, ya da vəkillərinin bu ittihamlarla bağlı hər hansı mövqeyi ifadə edilməyib. Bir müddət öncə Müdafiə Nazirliyinin Şəmkir Hərbi Birləşməsinin şəxsi heyətin uçotu üzrə məsul zabiti, polkovnik-leytenant Azər Hüseynovun bu il intihara cəhd etməsi barədə məlumatlar yayılmışdı. Həmin ərəfədə Göygöl rayonu yaxınlığındakı hərbi



postlardan birində 7 əsgər müəmmalı şəraitdə qətlə yetirilmişdi və Müdafiə Nazirliyi faktla bağlı ictimaiyyətə təfsilatlı məlumat verməmişdi.

# Единогласно за расторжение



84 депутата «за» и ни одного «против» – парламент единогласно проголосовал за расторжение российско-грузинского соглашения

**Грузия прервала действие соглашения об организации транзита через территорию страны военных грузов и персонала российских баз. С такой инициативой выступил президент страны, а парламент во вторник единогласно проголосовал «за». Согласно договору, Россия могла обеспечивать как военной техникой, так и кадрами 102-ю российскую военную базу, расположенную на территории Армении в Гюмри.**

84 депутата «за» и ни одного «против» – парламент единогласно проголосовал за расторжение российско-грузинского соглашения. Замминистра иностранных дел Нино Каландадзе, представившая законодателям инициативу президента, заявила, что необходимость расторжения соглашения связана с тем, что уже через полгода истекает срок его действия, а кроме того, с 2008 года оно не действует ни в какой части.

# Понятия Лукашенко

**Александр Лукашенко в последнее время удивляет своими публичными высказываниями, выходящими за рамки традиций международной дипломатии. Он назвал «негодяями» тех, кто пытается ввести экономические санкции против Беларуси:**

«Просто негодяи. Поэтому не хочу говорить о всяких Баррозу (глава Еврокоммисии - ред.), других козлах, быках и тому подобных».

Чем вызвана такая риторика президента Беларуси, какими могут быть последствия его внешнеполитической грубости? Об этом рассуждает обозреватель "Радыё Свабода"Юрий Дракахруст.

– Александр Лукашенко находится у власти много лет. Зачем ему сейчас понадобилась такая грубая уличная лексика? Это вспышка гнева или тонкий расчет?

– Здесь действуют принципы то ли сельских танцулек, то ли бандитской сходки. Там в ходу очень простые понятия: если тебя унизили, то ты должен ответить. Как угодно. Если не можешь физически, то хотя бы вербально. Вот Лукашенко нечто подобное и сделал. С его точки зрения, он был унижен, а потому и ответил: сами вы, мол, козлы. Да, он долго является президентом, в общем-то, знает нравы, но в Западной Европе, принцип – "за козла ответишь" – не очень действует. И вполне возможно, что через год тот же господин Баррозу будет пожимать Лукашенко руку. Без особых улыбок, но будет. А Лукашенко живет в мире иных понятий.

– Выходит Лукашенко ориентировался и на свой внутренний электорат, и одновременно на знакомых ему политических лидеров, которым он дал понять, что "больше со мной так нельзя".

– Да, что "больше со мной так нельзя". Он ведь и про Россию высказался, только гораздо более вежливо и аккуратно: мол, "я не буду прогибаться ни под одного, ни под другого президента", имея в виду тех своих коллег, которые собрались в Чернобыле. Так что Лукашенко занял своеобразную круговую оборону. А грубость в выражениям была вызвана еще и тем, что в самой Беларуси довольно сложная внутренняя ситуация. Валютный кризис, взрыв в метро – все это для Лукашенко также сильный вызов. И в этой ситуации он ведет себя в рамках собственной политической культуры, которая гласит: чем хуже твое положение, тем более крутым ты себя должен показывать.

***Александр Гостев***



# За "порнуху" ответите!

**В Азербайджане будет ужесточено наказание за преступления, связанные с "незаконным распространением порнографических материалов или предметов", сообщает Trend. В проекте изменений в Уголовный Кодекс указано, что "лицо, совершившее это преступление, лишается права занимать определенную должность или заниматься определенной деятельностью на срок до трех лет. В случае нелишения этих прав лицо наказывается выплатой штрафа в размере от 2000 манатов до 4000 манатов (примерно $2500-5000) или же исправительными работами сроком на 2 года или лишением свободы сроком на 3 года".**

В настоящее время это преступление наказывается выплатой штрафа в размере от 1000 манатов до 3000 манатов (примерно $1250-3750) или ограничением свободы сроком на 2 года или наказанием в виде исправительных работ сроком на 2 года. Под незаконным распространением порнографических материалов или предметов понимается их незаконное производство, распространение, реклама, а также незаконная торговля изданиями, кино или видеоматериалами, фотографиями порнографического характера и другими предметами с целью распространения или рекламы этих материалов или предметов.

После обсуждения в парламентском Комитете по правовой политике и государственному строительству законопроект был рекомендован для рассмотрения на заседании парламента Азербайджана.

# İlham Əliyev «Twitter»dən necə istifadə edir?




**Azərbaycanda «Twitter» *(internetdə mini bloqlar şəbəkəsi)* istifadəçiləri arasında ən çox izləyicisi olan İlham Əliyevdir. Onun 2. 628 izləyicisi var. İlham Əliyevsə cəmi 2 nəfəri izləyir, ondan xəbər alır. Əliyevin izlədiyi özünün ingilis dilli «Twitter» hesabıdır, birisə Prezident Administrasiyasının hesabı.**

«Twitter» insanlarla münasibət, şəbəkə qurmağa xidmət edən, onlardan birbaşa informasiya almağa yardım edən bir vasitədir. Prezident olandan bəri müstəqil Azərbaycan jurnalistləri ilə görüşməyən, müsahibə verməyən İlham Əliyev «Twitter»də də qapalı qalmağa çalışır. Uzun müddətdir «Twitter» hesabı olan İlham Əliyev bir dəfə də olsun ona edilən «mentions»lara *(xatırlatmalar)* cavab verməyib. Bundan əlavə, İlham Əliyevin "twit"lərinin çoxu «copy paste»dir. Prezident rəsmi qəzetlərdə, agentliklərdə yayılan özünün rəsmi çıxışını mikrobloqda "twitt" etməklə məşğuldur.

**İLHAM ƏLİYEVDƏN SORUŞURLAR...**

«Twitter»də @vuqarzulfuqar adlı istifadəçi İlham Əliyevə sual edir: «Cənab prezident, bir çox Avropa şəhərlərində ən əlverişli nəqliyyat vasitələri olan tramvaylar Bakıya gələcək?»

@doctorhikmet yazır: «Cənab prezident, biz və ailəmiz dövlətimizə qarşı həmişə sədaqətli olmuşuq. Sizin "Twitter"dəki səhifənizi görüb necə sevindim...»

Fikirlərini 140 simvola sığdırmayan @doctorhikmet davam edir: «Mən gələcəyə ümidlə baxmışam. Sizin gənclərə verdiyiniz fürsətdən istifadə edib Türkiyədə təhsilimi davam etdirirəm», «Mənim bir problemim var. O da dövlətimizin verdiyi təqaüd heç mənim kirayə haqqımı ödəmir. Sizdən xahiş edirəm mənim..." "twitt" davam edir: «köçkün olduğumu nəzərə alaraq məni Dövlət Neft Fondunun proqramına salmağınızı xahiş edirəm. Əvvəlcədən sizə təşəkkür edirəm».

Profilində türk aktyoru Polad Alemdarın fotosunu yerləşdirən @togrulabbasov isə İlham Əliyevə yazır: «Binəqədi rayonunun Aşağı Sulutəpə qəsəbəsində kanalizasiya problemi vardır», «Qəsəbə sakinləri olaraq ümid edirik ki, bu məsələ tezliklə öz həllini tapacaq».

107 izləyicisi olan @ziyafiz: «Bir liderin sözləri ilə əməlləri vəhdət olmalıdır. Öndər kimi olun, camaatla olun ki, sevsinlər sizi». Bundan əlavə, @ziyafiz iddia edir ki, İlham Əliyevin «Twitter» səhifəsi Elnur Aslanov tərəfdən idarə edilir: «Yenə Elnur Aslanovun projesi. Bu bloqu deyəsən Aslanov öz BB-dən yazır :-)», «Təhsilə göndərilənlər iri çaplı məmur qohumlarıdır».

Heç izləyicisi olmayan @Emin_Emin İlham Əliyevə Azərbaycan vətəndaşı olmağıyla fəxr etdiyini yazır. Fransada olan Elnur Məcidli isə İlham Əliyevə yazır: «İmkansız ailələrin övladları nə qədər savadlı olsalar da, rüşvət vermədikləri üçün xaricə təhsil ala bilmirlər».

İlham Əliyev ona yazılanların heç birinə reaksiya verməyib.

**NOVRUZ MƏMMƏDOV QƏRBDƏN NARAZIDIR?**

«Facebook» və «Twitter»də ən çox öz müsahibələrini paylaşan Azərbaycan Respublikası Prezidentinin Xarici Administrasiyasının başçısı Novruz Məmmədov ona ünvanlanan suallara cavab verməyib. Bir neçə aydır «Twitter» hesabı olan Novruz Məmmədov cəmi 19 "twitt" edib. 5 nəfəri izləyən Məmmədov, 134 nəfər tərəfindən izlənilir.

***Turxan Kərimov***

# Elmar Məmmədyarov: «Biz Misiri görürük...»

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Rusiyanın «Moskovskiye Novosti» qəzetinə müsahibə verib. E. Məmmədyarov deyib ki, Qarabağ münaqişəsini «dondurulmuş konflikt» saymır, çünki tez-tez atəşkəs pozulur.**

«Rusiyanın aktivləşməsinin Qarabağ danışıqlarına təsirini görə bilirsizmi» sualının cavabında E.Məmmədyarov deyib ki, onlar rusiyalı həmkarı Sergey Lavrov ilə tez-tez müzakirə aparırlar: «Mənim Lavrovla görüşlərim çox məhsuldar olur. Xüsusilə indi, Lavrov münaqişənin tənzimlənməsi ilə şəxsən məşğul olandan sonra. O, hər iki tərəfin mövqeyini detallarına qədər bilir və çalışır ki, təmas nöqtəsini tapsın, proses dayanmasın, irəliləsin».

E. Məmmədyarovun fikrincə, prezidentlərin Soçidəki son görüşü ümidləri artırıb: «Azərbaycan və Ermənistan arasındakı mövcud münasibət heç kəsi razı salmır. İstəyərdik ki, bu yara biz gözlədiyimizdən tez sağalsın. Axı prinsiplər hələ sülh razılaşması deyil. Burda səylərimizi nəinki ikiqat, hətta üçqat artırmaq lazımdır. Qarabağ münaqişəsinin həlli çox mürəkkəbdir, çoxlu faktorlara bağlıdır. Hətta sülh razılaşması hazırlasaq belə, bu, hələ son deyil, tunelin sonunda gələn işıqdır».

E.Məmmədyarov Yaxın Şərqdə, Şimali Afrikada baş verən proseslərin Azərbaycana mümkün təsiri barədə sualı da cavablandırıb: «Biz Misiri görürük. Başa düşürük ki, prezidentin kənarlaşdırılması və hakimiyyətin ordu

Elmar Məmmədyarov

ya keçməsi həmişə başqa cür izah edilirdi, nəinki demokratiyanın təntənəsi kimi. Başqa tərəfdən, əlbəttə, kütləvi çıxışlar varsa, bunu çox diqqətlə analiz etmək lazımdır...»

***Səadət Akifqızı***

# "Vergi əməkdaşı bizdən əvvəlcə 20 min manat istədi"



Azerbaijan -- Manat (code: AZN), the currency of Azerbaijan, 2009

**«Audit İaşə şöbəsindən bizə dedilər ki, 20 min manat pul verməlisiniz. Biz də dedik ki, sizə verməyə pulumuz yoxdur» Bakıdakı «Dəli Kür» kafesinin nümayəndəsi Rafiq Məsimov iddia edir ki, bu ilin əvvəlindən o qədər də böyük olmayan kafelərində Vergilər Departamentinin Audit İaşə şöbəsi yoxlamalara başlayıb.**

Sahibkarın deməsinə görə, bir neçə gün yoxlama aparılandan sonra onlardan 20 min manat pul istənilib. «Biz də dedik ki, bizim pulumuz yoxdur sizə verməyə. Dedi gedin fikirləşin. On gün keçəndən sonra bizə yenə dedilər ki, «gedin 10 min manat gətirin». Dedik ki, bunu da verə bilməyəcəyik. Biz hesabımızı aparırıq, qanunla nə ödəməliyiksə, onu da büdcəyə ödəyirik».

**KİÇİK KAFEDƏ 4 AYLIQ YOXLAMA**

Rafiq Məsimovun sözlərinə görə, vergi əməkdaşlarının əvvəlki rüşvət tələbi qalmaqla kafedə yoxlamalar hələ də davam edir. Sahibkar kiçik bir kafedə 4 ay yoxlama aparılmasının anlaşılmaz olduğunu deyir. «Belə şey olar. Bu nədir? Bu, prezidentə qarşı çıxmaqdır, mən başqa heç bir şey anlamıram»

**DAHA BIR SAHİBKARDAN 400 MİN RÜŞVƏT TƏLƏBİ**

Bundan başqa, Şirvan şəhərindən AzadlıqRadiosuna müraciət edən və adının çəkilməsini istəməyən sahibkar ondan vergi işçilərinin 400 min dollar pul istədiyini iddia edir. Sahibkarın sözlərinə görə, o, 20 min dollar verə biləcəyini desə də qarşı tərəf bununla razılaşmayıb.

VERGİLƏR NAZİRLİYİ:
**YAZSINLAR ARAŞDIRAQ**

Vergilər Nazirliyində isə bu deyilənlərə inanmırlar. Nazirliyin Analitik İnformasiya Şöbəsinin əməkdaşı Şahin Məmmədov AzadlıqRadiosuna deyib ki, əgər sahibkarlar elə bir halla üzləşiblərsə, onlar Vergilər Nazirliyinin Daxili Təhlükəsizlik İdarəsinə rəsmi müraciət etsinlər: «Yaxud da nazirə məktubla müraciət edə bilər. İstənilən halda Daxili Təhlükəsizlik İdarəsi bunu araşdıracaq. Son vaxtlar korrupsiyaya qarşı mübarizə ilə bağlı bu məsələlər diqqət mərkəzindədir. Bu baxımdan da istənilən şikayət, istənilən müraciət çox diqqətlə araşdırılır. Bizim bu məsələyə rəsmi mövqeyimiz budur. Şikayətini etsin, cavab mütləq alacaq. Məsələyə başdansovdu yanaşma və ya araşdırılmama olmayacaq».

**«HƏR BIR PROBLEMİN HƏLLİNƏ NAİL OLACAĞIQ»**

Prezident Administrasiyası Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov AzadlıqRadiosuna deyib ki, sahibkarlar Baş Prokurorluğun 161 saylı qaynar xətt məlumat mərkəzinə müraciət etsinlər. «Mən xahiş edirəm ki, konkret faktla həmin o qaynar xəttə vətəndaş müraciət etsin. Mən sizi əmin edirəm ki, yaranmış hər bir problemin həllinə nail olacağıq».

Sahibkar Rafiq Məsimov isə deyir ki, o, Baş Prokurorluğa müraciət etməyib, amma Vergilər Nazirliyinə etdiyi müraciətə hələ də cavab almayıb.

**MAYIN 1-dən**

İndiyə qədər müxtəlif qurumlarda yoxlamalar aparan qurumlar mayın 1-dən bu yoxlamalara müstəqil olaraq özləri qərar verə bilməyəcəklər. Ədliyyə Nazirliyinin İdarə rəisi Faiq Qurbanovun AzadlıqRadiosuna dediyinə görə, yoxlama yalnız sahibkara reyestrdən çıxarış təqdim edildiyi zaman mümkün olacaq.

«Yalnız bu halda o qurumun yoxlamanı aparmağa ixtiyarı olacaq. Əgər onlar reyestrdən çıxarışı təqdim etməsələr, sahibkarlıq subyekti belə bir yoxlamanın aparılmasına qarşı çıxmaqda tam haqlı olacaq».

Bu baxımdan da Faiq Qurbanov hesab edir ki, əsaslandırılmamış və əvvəl aparılan yoxlamalardan bir il ötmədiyi halda yoxlayıcı qurumun təkrar yoxlama aparmaqla bağlı müraciəti də reyestrə daxil edilməyəcək.

***Maarif Çingizoğlu***

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun

**Fətullah Gülən kimdir?**



Britaniyanın "Financial Times" qəzeti dini lider Fətullah Gülənin kimliyi, ideyaları, nüfuzunun səbəbləri barədə çox maraqlı araşdırma dərc edib

**Sakinləri ayaqlarından tanınan şəhərcik**



Abşeron Gənclər Şəhərciyində nədən narazıdırlar?

**Müğənnilərin YAP sevgisi**




Bir neçə gənc müğənni Yeni Azərbaycan Partiyasına üzv olub. Nədən?

**Türkiyədə Azərbaycan türklərinin qurultayına kimlər əngəl törətmək istədi?**




Aprelin 23-24-də İzmirdə Türkiyədə yaşayan Azərbaycanlıların 1 Qurultayı keçirilib

# BMT-də çıxış edən ən gənc azərbaycanlının həbsi


Solidə xanım

## Bəxtiyar Hacıyevin anası: "Baş prokuror deyir ki, 2006-cı ildən gizlənir, 2007-də isə prezidentlə şəkli var."

**2 aydan çoxdur ki, həbsdə olan gənc fəal Bəxtiyar Hacıyevin Gəncədəki evlərinə getməyə qərar verdim. Qapıda bizi onun doluxsunmuş anası Solidə xanım qarşıladı. Ana deyir ki, gənclər də Bəxtiyarı dəstəkləməsəydilər, onun həbsinə heç dözə bilməzdi. Səsi titrəyir...**

**«BƏXTİYAR UŞAQ VAXTINDAN NƏ DÖYMƏYİB, NƏ DÖYÜLMƏYİB»**

«Bu şəkli 5-ci sinifdə öz məktəbimizdə oxuyanda çəkdirmişik. Əynindəki paltarı özüm toxumuşdum, birini jilet, birini kofta kimi. Bəxtiyar lap balaca vaxtından sözəbaxan, işini bilən olub. Məncə, hər şey gendən gəlir. Bəxtiyar uşaq vaxtından nə döyməyib, nə döyülməyib. Qonşu ilə dalaşmaz, böyüklərin də sözünü eşidirdi. Türk liseyinə gedəndən sonra türklərin də tərbiyəsinin təsiri oldu».

«Bu, Azərbaycan rəhbərliyi üçün bağışlanmaz günahdır. Mən övladımı kimi yox, şagirdim kimi deyirəm. Bəxtiyarın xidmətlərini qoyaydılar bir tərəfə, 1 faizini özünə qaytaraydılar. Amma onu vətənə xidmətdən yayınmada günahlandırmayaydılar. Desinlər siyasi işlərimizə qarışır, siyasi səhvlərimizi göstərir, gəncləri aktiv olmağa çağırır. Bu, başqa məsələ. Bunun öz adı olar. Hindistana gedib, Şotlandiyaya gedib, Makedoniyaya gedib. Xocalıyla bağlı çoxlu şəkillər aparıb paylayıb. Ermənilər 5 nəfər, bu da 1 nəfər. Mən dedim ki, Bəxtiyar bəsdir, bir az da özünü fikirləş. Dedi, mama, əgər orda ermənilərin boynunun düşdüyünü özün görsəydin... BMT-də çıxış edən ən gənc azərbaycanlıdır».

**"SUSMAYAQ.BİZ"**

Solidə xanım deyir ki, Bəxtiyar Azərbaycanın başını həmişə ucaldıb. Ancaq 2007-ci ildə Bəxtiyarın Susmayaq.biz saytını hazırlaması hakimiyyətin qəzəbinə səbəb olub.

«Təzyiqlər 2007-ci ildən başlamışdı. Susmayaq.biz adlı sayt hazırlamışdı. Qiymətlərin qəfil qalxması ilə bağlı. Susmayaq.biz təhsildə rüşvətə yox deyəndən sonra hakimiyyətin qəzəbinə gəldi. O, getdi xaricdə təhsil aldı gəldi. Təhsil haqqını vermədi ona Azərbaycan hökuməti. İndiyədək heç kim ona heç nə demirdi. 10 il keçib aradan, alternativ xidmət istədi. Baş prokuror deyir ki, 2006-cı ildən gizlənib. 2007-də prezidentlə şəkli var. 2007-də sayt hazırlayandan sonra tutdunuz. Belə çıxır ki, Azərbaycan hökuməti işləməyib. Nə sərhəd qoşunları işləyib, nə prokuror».


Bəxtiyar BMT-də çıxış edən ən gənc azərbaycanlıdır

**• BƏXTİYAR XALÇA TOXUYA BİLİR**

**• BƏXTİYARI ÖLÜMDƏN QURTARDIM**

**Yazının tam mətni AzadlıqRadsiosu.az-da**

***Gülnur Raqifqızı***

# Türk «Şengen»i! O nə qədər realdır?


Türkdilli ölkələrin İstanbul sammiti, 16 sentyabr 2010

Türkiyənin baş naziri R.T.Ərdoğan bu günlərdə maraqlı təkliflə çıxış edib. O bildirib ki, türk dövlətləri arasında Şengen sazişinə bənzər sazişin qüvvəyə minməsi çox yaxşı olardı. Baş nazir bu məqsədlə ölkəsinin digər dövlətlərlə danışıqlar aparacağına da işarə edib. Amma bir detalı qeyd etmək vacibdir ki, cənab Ərdoğan maraqlı təkliflərlə çıxış etməyi sevir. Lakin deyilənlərin heç də hamısını məntiqi sonluğa çatdırmaq, başa vurmaq olmur. Bir – iki il bundan əvvəl o, digər maraqlı təkliflə – Qafqaz Təhlükəsizlik Paktı təklifi ilə çıxış etmişdi. Amma bu günə qədər ortalıqda quru ritorikadan başqa heç nə yoxdur. Eyni sözləri Yüksək Strateji Tərəfdaşlıq təşəbbüsü haqda da demək olar. Bunları qeyd etməklə təkliflərin ancaq Türkiyənin günahı ucbatından baş tutmaması təəssüratını yaratmaqdan uzağıq. Sadəcə, hər hansı təklif irəli sürülməmişdən öncə onun toxunacağı digər siyasi subyektləri, onların potensial inteqrasiya meyllərini və imkanlarını da nəzərə almaq lazımdır. Bir müddətdir ki, Azərbaycanla Türkiyə arasında birtərəfli vizasız rejim qüvvəyə minib. Amma Azərbaycan müxtəlif bəhanələrlə onu ikitərəfli razılaşmaya çevirməyə tələsmir, Türkiyə vətəndaşları üçün vizanı ləğv etmir. Belə bir hal ən yaxşı halda İranla əlaqələndirilir, çünki İran da Azərbaycan vətəndaşları üçün viza rejimini birtərəfli qaydada ləğv edib və indi bu addıma qonşusunu da təhrik etmək istəyir. Amma İranla vizanın götürülməsi ölkədə iranlıların onsuz da izafi sayını bir qədər də artıra bilərdi, üstəlik, bunun siyasi məqam və nüansları da xüsusi olaraq nəzərə alınmalıdır. Amma problem təkcə bir və yaxud bir neçə siyasi detalla bitir, yoxsa ortalıqda ciddi psixoloji maneələr də var?

**Bloq yazısının davamı AzadlıqRadiosu.az saytında**

***Hüseynbala Səlimov, müstəqil analitik***

# Gülər Əhmədova: «Problem varsa, onu demək lazımdır»

**«İşdən sonra» verilişinin «Parlament saatı» rubrikasının qonağı Yeni Azərbaycan Partiyasının üzvü, deputat Gülər Əhmədovadır.**

*- Siz hakim partiyadan olan digər deputatlardan tənqidi çıxışlarınızla fərqlənirsiniz, problemləri tez-tez önə çəkirsiniz...*

- Mən deyəndə ki, filan problem var, siz təəccüblənirsiniz? Niyə təəccüblənirsiniz ki? PROBLEM VARSA, ONU DEMƏK LAZIMDIR. Açığı, mən bilmirəm niyə təəccüblənirlər. Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyev bütün dünyanın eşidəcəyi bir tərzdə daha kəskin, daha reallıqları əks etdirən formada bu şeyləri deyirsə, mənim ondan sonra bunu deməyim, məncə, təəccüblü olmamalıdır.

*- Bəs partiyadaşlarınız təəccüblənmirlər Siz belə çıxışlar edəndə?*

- Bəlkə də deyirlər. Mən eşitməmişəm. Amma üzdə deməyiblər. Əksinə, bir çox hallarda deyirlər ki, çox sağ ol, düz dedin, yaxşı dedin. Halal olsun. Bunları eşitmişəm.

*- Özünüzü necə, məsul hiss edirsinizmi problemlərə görə?*

- Müəyyən dərəcədə əlbəttə, özümü məsul hiss edirəm. Məsul hiss etdiyim üçün problemlər barədə danışıram. Məsul hiss etməsəm deyərəm mənim nəyimə lazımdır?

*- Əvvəllər korrupsiya barədə danışanda, deyirdilər ki, Azərbaycanda korrupsiya yoxdur. Sonra birdən-birə hamı etiraf etməyə başladı ki, korrupsiya var. Böyük layihələrdə olan korrupsiyanın arxasında prezidentin durduğunu iddia edənlər var. Bu iddialara necə cavab verərdiniz?*



Gülər Əhmədova

- Mən belə şeylər eşidəndə, çox narahat oluram ki, insanlar belə şey deyirlərsə və buna inanırlarsa, bunun özü artıq yaxşı deyil. Çünki kimə isə şər atmaq doğru bir şey deyil. Bunun özü müxalif mövqe baxımından da doğru bir şey deyil. MƏN BİLMİRƏM KİM DEYİB Kİ, AZƏRBAYCANDA KORRUPSİYA YOXDUR. Bu dönəmdən əvvəl korrupsiya ilə mübarizə komissiyası yaradılmışdı. İndi o komissiya genişləndirildi. Kimsə deyibsə ki, korrupsiya yoxdur, onda o adama sual vermək lazım idi ki, yoxdursa niyə görə bu komissiya var idi?

*- Dinləyici yazır: Prezident Administrasiyasının rəhbəri «Lider» televiziyasında gündüz vaxtı, xəbərlər buraxılışında yayımlanan o açıq-saçıq səhnələri görmürmü? Siz nə düşünürsünüz bu barədə?*

- Mən bəyənmirəm. O İNSANLARIN İNTİM HƏYATLARI ÖZLƏRİNƏ MƏXSUSDUR, DOĞRU DEYİL BUNU GÖSTƏRMƏK. O insanların yazılarındakı tanınmış insanlar haqqında şərəf və namusa toxunan fikirləri də bəyənmirəm. Yəni, hər şeyi deyəndə, onun təkcə nəticəsindən danışmaq doğru deyil. Hər şeyi deyəndə, onun səbəbini də demək lazımdır.

*- Dinləyici yazır: Təsisçisi olduğunuz «Mərkəz» qəzeti aksiyada saxlanılan uşağın anasının bar qadını olduğunu yazıb.*

- Mənim də ciddi iradım oldu. Orada qadın bir söz deyirdi ki, mənim dərman almağa pulum yoxdur. Mən də izləyirdim bütün o videoları. Dedim ki, axtarın o qadını tapın, bunun problemləri ilə bağlı araşdırma aparın... Araşdırın görün, o, işləyir, işləmir, əri var, yoxdur, niyə uşağına dərman ala bilmir. Sivil formada bir qadına bənzəyir, şəhərdə yaşayan adama oxşayır... Bunlar araşdırma aparıblar. Mən açığı bilirəm ki, nələr yazırlar mənim haqqımda. Öz günahları öz baballarında qalsın. Bir şey deyə bilmərəm bu yazan adamlar barədə. O da onların tərbiyəsidir. O cür yazırlar ki, Gülər Əhmədova bunu sifariş verib. Hər kəs bilir ki, mən belə sifarişlər heç vaxt verməmişəm. Düzdür, bu, mənim rəhbərlik etdiyim qəzetdə çıxıb, amma mən iradımı da bildirdim. Başa saldım ki, sensasiya xatirinə bir çox şeyləri yazmaq olmaz. Amma mən o qadınla görüşmək istəyirəm. Nəyə görə? Onun problemini bilmək istəyirəm. Sonda onu da deyim ki, mən tam əleyhinəyəm uşaqların mitinqə gətirilməsinin...

***Xədicə İsmayılova, Kamran Mahmudov***

# Qocaman müəllimlər pensiya yolunda

**Yaşı 65-ə çatmış müəllimlər təqaüdə göndərilə bilər. Artıq bu məsələ təhsil sisteminin ən yüksək dairələrində müzakirə olunmaqdadır. Təhsil naziri Misir Mərdanov bu barədə jurnalistlərə açıqlamasında deyib ki, müəllimlərə dövlət qulluqçusu statusu veriləndən sonra belə bir yaş məhdudiyyəti tətbiq oluna bilər. Onun fikrincə, müəllimlərə dövlət qulluqçusu statusunun verilməsi onların maaş və təqaüdə çıxma vaxtı kimi məsələlərə təsir edəcək.**

Bakının Sabunçu rayonu 72 saylı məktəbin 50 yaşlı tarix müəllimi Aydın Allahverdiyev dövlətin bu addımını müsbət dəyərləndirir. Amma əlbəttə ki, vacib saydığı bəzi məsələlərin nəzərə alınması şərti ilə. O hesab edir ki, ilk növbədə müəllimlərə onları layiqincə yaşada biləcək təqaüd verilməlidir.



Hələlik ortada konkret bir təklif, yaxud layihə yoxdur

«21-ci əsr» Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev isə deyir ki, müəyyən ediləcək təqaüd və onun tətbiqi ədalətli olarsa, bu proses heç bir ciddi narazılığa səbəb olmayacaq. E. Əliyev deyir ki, 65 yaşlı müəllimlər 1960-cı illərin məzunlarıdır. Onun fikrincə, Azərbaycanda 60-70-80-ci illərin müəllimləri ən keyfiyyətlilər sayılır.

**Mövzunun müzakirəsi "Konktekst" verilişində**

***İlqar Rəsul***

# Yetişdi istirahət vaxtı...


Ölkə daxilində 200 000 nəfər dincəlib

**Turizm mövsümü yaxınlaşdıqca, «harada dincəlməli» sualı çoxlarını düşündürür. Bakı sakini Gülər Əliyeva da neçə ildir həyata keçirə bilmədiyi arzusunu reallaşdırmaq istəyir - yay məzuniyyəti vaxtı ailəsi ilə birlikdə istirahətə getməyi planlaşdırır. Deyir ki, həm ölkə daxilindəki, həm də xaricdəki turizm yerləri ilə maraqlanır. Ölçür - biçir ki, görsün, dincəlmək arzusunu həyat keçirə biləcəkmi: «Elə Azərbaycanda da çox gözəl yerlər var. Ancaq maraqlanıram, deyəsən bahadır, görək, qismət» .**

**DUBAY, AZƏRBAYCAN - EYNİ QİYMƏTƏ**

Gülər kimi istirahət yerlərinin bahalığından şikayətlənənlər çoxdur. Keçən il istirahətini Dubayda keçirmiş Xalid



Aydın İsmiyev

Məmmədov isə deyir ki, Dubaydakı birhəftəlik istirahətlə Azərbaycandakı istirahət az qala eyni qiymətə başa gəlirmiş. Ona görə də o, Dubayı seçib: «Fikirləşdim ki, elə ora gedərəm, dünyanın başqa bir şəhərini görərəm».

Azərbaycanın istirahət yerlərində qiymətlərin baha olması fikriylə bu sahə ilə məşğul olanlar özləri də razıdır. Lerikdə turizmlə məşğul olan sahibkar Əhmədağa Ağayev deyir ki, bahalığın səbəbi daha çox xərclərlə bağlıdır: «Bizdə qiymətlər bir gün üçün 50 manatdan 100-120 manata qədərdir. Mən razıyam ki, Azərbaycanda bu sahədə qiymətlər bahadır. Ya gərək bunu özləri tənzimləsin, ya da kömək olunsun. Çünki xərclər çoxdur».

İqtisadçılar da sahibkarlar kimi deyirlər ki, turizmin inkişafı üçün bu sahəyə güzəştlər olmalıdır.

**VERGİ TƏTİLİ**

İqtisadi İnnovasiya Mərkəzinin rəhbəri Məhəmməd Talıblı deyir ki, bu sahəyə kreditlərin verilməsi mümkündür. Həm də adi kreditlər yox, güzəştli və dövlət zəmanəti ilə verilə bilər: «Eyni zamanda vergi tətili tətbiq oluna bilər. Bu zaman həmin şirkətlər hər hansı bir zaman kəsiyi üçün vergilərdən tam azad olur, ya da çox rəmzi vergi ödəyirlər».

Mədəniyyət və Turizm Nazirliyi turizm şöbəsinin müdiri Aydın İsmiyev isə bildirir ki, Azərbaycanda turizm yeni bir sahədir. Bu sahəyə hər hansı güzəştlər isə hələlik nəzərdə tutulmur: «Belə məsələlərə baxılmır. Güzəştlər məsələsi gündəlikdə deyil. Gələcəkdə ola bilər».

**OTEL ÇOX OLARSA...**

«Azərbaycanda qiymətlərin bahalığına gəldikdə, iş ondadır ki, bu, turizm şirkətlərindən asılı deyil. Dubayda 1500 - 2000 otel var. Azərbaycanda isə hazırda 500-ə yaxın otel fəaliyyət göstərir. Yay mövsümü vaxtı regionlarda yer çatışmazlığı müşahidə olunur. Otel nə qədər çox olsa, qiymətlər də yavaş-yavaş düşər».

Bu yaxınlarda «Bakı Tur» şirkətinin rəhbəri Faiz Məmmədov bildirib ki, turizm obyektlərində müxtəlif dövlət qurumlarının apardığı yersiz yoxlamalar bu sahədə qiymətlərin 20-30 faiz artmasına səbəb olur. Aydın İsmiyev deyir ki, belə yoxlamalar mümkün deyil, olsa-olsa monitorinqlər keçirilə bilər. Turizmlə məşğul olan Əhmədağa Ağayev isə deyir ki, belə yoxlamalar əvvəllər olub: «Allaha şükür, sakitçilikdir. Korrupsiyaya qarşı mübarizə ilə bağlı cənab prezidentin göstərişindən sonra hər şey yaxşıdır».

Nazirliyin məlumatına görə, keçən il yay istirahət mövsümündə 60-70 min Azərbaycan vətəndaşı xarici ölkələrdə istirahət edib. Ölkə daxilində isə 200 000 nəfər dincəlib.

***Kəbiran Dilavərli***

# Azərbaycandan Türkiyəyə 17 milyard dollar

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti 7 ilərzində Türkiyəyə 17 milyard dollar sərmayə qoymağı planlaşdırır. Bu barədə APA «İhlas» xəbər agentliyinə istinadən xəbər verir. Bura liman, yeni neftayırma zavodu, yeni neft-kimya müəssisələri və hələ açıqlanmamış layihələr daxildir. Məlumatda ARDNŞ-nin eyni zamanda Qazaxıstan, Rusiya və Avropada bir neçə şirkəti almaq fikrində olduğu bildirilir.

**TÜRKİYƏ «ŞAHDƏNİZ» QAZI İLƏ BAĞLI RAZILAŞA BİLDİ**

Türkiyənin İstanbul şəhərində Türkiyə ilə Azərbaycan arasında təbii qazın alqı-satqısı və tranziti ətrafında müzakirələr aparılıb. Müzakirələrdə Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev və Türkiyənin enerji və təbii ehtiyatlar naziri Taner Yıldız iştirak ediblər. Müzakirələrin yekununa dair keçirilən mətbuat konfransında Natiq Əliyev bildirib ki, iki ölkə arasında imzalanacaq sənədlər Azərbaycan təbii qazının Avropaya nəqli və Türkiyəyə satışı şərtlərini müəyyən edəcək.

# Ərdoğan İqdırda Qarabağdan danışıb

Dağlıq Qarabağ münaqişəsi həll olunmadan Türkiyə-Ermənistan münasibətlərinin normallaşması mümkün deyil. APA-nın " CNN-Tük "ə istinadla verdiyi məlumata görə, bunu Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan 12 iyun seçkilərilə bağlı İqdırda yerli sakinlər qarşısında çıxış edərkən deyib. Ərdoğan qeyd edib ki, Qarabağ və Naxçıvan bizim məsələmizdir və Qarabağ problemi həll olunmayınca Ermənistanla əlaqələrin normallaşması mümkün deyil. O, həmçinin Naxçıvanla Türkiyə arasındakı yolun artıq hazır olduğunu və yaxın günlərdə açılacağını deyib.

# Nə yazıq ki, Əli Kərim də öldürülmüşdü...


Şair Əli Kərim

**A.Puşkin, M.Lermontov-M.Müşfiq və Ə.Kərim! Fikrinizdə bu paraleli aparsanız tale oxşarlıqlarının ip uclarını bula biləcəksiniz. Nə yaxşı ki, XX yüz ilin bu iki şairi vardı və nə yaxşı ki, onlar bizi tarix qarşısında rusvay olmaqdan öz canları, qanları bahasına xilas etdilər.**

Paralel apardıqca içinizdən mənə etiraz edəniniz də tapılacaq. Axı A.Puşkin, M.Lermontov, M.Müşfiq kimi Ə.Kərim öldürülməmişdi?

Yox, sevgili oxucum, yox, nə yazıq ki, Ə.Kərim də öldürülmüşdü.

***

Gərək ki, universitetin son kursu idi və mən diplom işi yazmaq üçün Bakıya gəlmişdim, həyatımın Bakıda keçəcək ən uzun müddəti başlamışdı. O zamankı H.Aslanov küçəsi ilə Qoqol küçələrinin *(indi o küçələrin adları eyni ilə qalır, ya qalmır, xəbərim yoxdur)* kəsişdiyi yerdə əmimoğlugildə qalırdım *(ailə yay tətilinə getmişdi).* Günlərin birində nəsə almaq üçün aşağı enmişdim ki, küçədə Ə.Kərimlə üzüzə gəldim *(sonradan biləcəkdim ki, o zamanlar ömrünün son illərini yaşayırmış).*

Bu fürsəti göydə axtarırdım, yerdə əlimə düşmüşdü. Çoxdan ürəyimi deşən bəzi sözlərimi onun özünə deməyi qərara almışdım. Yorğun görünürdü, üzündən əksik olmayan təbəssümünün işığında hətta kirpiklərinin də ağarmağa başladığını gördüm və bu, məni heyrətləndirdi.

Bu o zaman idi ki, "Azərbaycan" jurnalından çıxdığınınmı, çıxardıldığınınmı xəbəri rayonlara da gedib çatmışdı. İçimdən o da keçdi ki, görəsən şairin saçlarının yox ey, kirpiklərinin belə bəyazlaşmasının səbəbi içkidəndir, yoxsa işsizlikdən? Əl verib görüşdük, hal-əhval sorduq.

Çəkingən-çəkingən:

– Əli müəllim, dedim, siz mənim yaşayan şairlər arasında ən çox sevdiyim və gizləmirəm, ən çox da çəkindiyim şairsiniz, axı niyə özünüzü qorumursunuz, niyə içirsiniz, hə?

Önünü kəsib inad etdiyimi görüb növbəti *(bir az kölgəli)* təbəssümü üzünə yayıldı:

– Harda qalırsan, dedi.

Əlimlə qaldığım səmti göstərdim:

– Bu yaxınlarda.

Sağ əlini cibinə salıb oradan bir əzik üçlük çıxartdı:

– Get, bir araq al gətir, oturub danışaq.

Şair Məmməd İsmayılın Türkiyədə qələmə aldığı bu yazının tam mətni ilə AzadlıqRadiosunun "Oxu zalı"nda tanış ola bilərsiniz

# Dilimizdəki bəzi sözlərin izahlı lüğəti

Dilimizdəki bəzi sözlərin izahlı lüğəti

SOYUQ - borca görə qazı kəsilmiş kasıb evi.

QARANLIQ - borca görə işığı kəsilmiş kasıb evi.

AC - neft ölkələrində milyonerlərin rahat həyatına mane olmamaq üçün sakitcə yaşayan statistik müsəlman.

UCUZ - yeyilməsi qəti qadağan olunan malların mağaza qiyməti.

BAHA - kasıbların qovulduğu mağazalardakı malların üstündəki yarlıq.

BİHUŞ - teleserial izləyən valideyn.

SƏHƏR - ayılıb özünü öz vətənində görməyin dözülməz məşəqqəti.

AXŞAM - əsəb, siqaret və araq qoxusunun boş ciblərdə evə daşınması.

YALTAQ - öz vəzifəsində qalmaq istəyən bülbül.

TOY - axmaq kasıbın harınlarla ayaqlaşmaq instinkti.

YAS - meyit ətrafında ət yemək mərasimi.

XƏSTƏ - milyarder olmaq istəyən milyoner.

MİTİNQ - polisin döydüyü əliyalın insanlara qarşı gülləkeçirməz jilet geyməsi.

MİTİNQ ŞÜARI - fəal vətəndaşların ayaqlar altında təhqir olunan arzusu.

QƏZET - qorxağın kağıza bükülmüş cəsarəti.

XARİCİ SƏFİR - ögey ata.

OMBUDSMAN - ögey ana.

TELEVİZOR - infeksion xəstəliklər çəmənliyi.

QADIN - ərindən 3 metr hündürlüyə tullanmağı tələb edən trener.

KİŞİ - çarəsizlikdən kişmişi gülən erkək.

KABAB - vəhşi millətin mədəsinin sevimli əmioğlusu.

**Lüğətin davamı "Oxu zalı"nda**

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



**Seymur Baycan yeni romanından bir maşının pulunu qazanıb**




**Koelyonun bestseller kitabı Azərbaycan dilində!**




**Keçən il Türkiyədə 570 roman çap edilib...**



**Farsca yazan şairlərimiz Azərbaycan türkcəsində yazmağa başlayıblar!**

# Obama komandasında inqilablara fərqli baxış var



**Amerikanın "Brooking" Universitetindən Robert Kagan "Washington post" qəzetindəki məqaləsində yazır: "Son aylar mətbuatda dərc edilmiş məqalələrdə Obama administrasiyasında ərəb dünyasında baş verən inqilablara necə münasibət bildirmək üstündə "praqmatiklər"lə "idealistlər" arasında mübahisə baş verdiyi iddia edilir. Həmin məqalələrə görə, "praqmatiklər" bu mübahisədə "Amerikanın milli maraqları"nı əsas gətirərək bölgədə uzun müddətdir ki,**

**HAKİM OLAN DİKTATORLARLA MÜNASİBƏTLƏRİ POZMAMAĞA ÇAĞIRIRLAR**

Məsələn, "New York Times" yazır ki, Misir üsyanı zamanı "Dövlət Departamentindəki diplomatlar" o vaxtkı prezident Hüsnü Mübarəki müdafiə etməyin tərəfdarı olublar, çünki həmin siyasi böhrana "Amerikanın regiondakı strateji maraqları prizmasından baxıblar". Və guya bu mübahisədə "idealistlər"i Amerikanın strateji maraqları elə də çox düşündürməyib, onlar nəyin bahasına olursa-olsun Amerikanın öz prinsiplərinə sadiq qalması və tarixi inkişafı dəstəkləməsi mövqeyindən çıxış ediblər".

Robert Kagan "Washington post" qəzetindəki məqaləsində yazır ki, belə yazılarda "praqmatizm" sözünün nə məna kəsb etdiyi başa düşülən deyil. Onun fikrincə, dövlətlər də insanlar kimi nadir hallarda sırf prinsiplər əsasında, yaxud nadir hallarda öz şəxsi maraqlarından kənar hərəkət edirlər. Bundan başqa, milli maraqların çərçivəsi də heç də dəqiq şəkildə müəyyən edilməyib. Milli maraq nədir? Neft mənbələrinə çıxış əldə etmək də milli maraqdır, bəzi prinsiplərin, o cümlədən demokratiyanın da təbliği. Vaxtilə praqmatik Dean Acheson *(keçmiş dövlət katibi)* 2-ci Dünya Müharibəsindən sonra Avropada demokratiyanın yayılmasının Amerikanın milli maraqlarına uyğun olmasına heç zaman şübhə etmirdi.

Məsələn, o qeyd edir ki, 2-ci Dünya Müharibəsindən qabaq yalnız Amerikanın milli maraqlarına sadiq qalmağı deyən və müharibəyə qoşulmamağı tövsiyə edənlər "Amerikanın real milli mənafelərinə ən çox zidd gedənlər idi".

Eyni zamanda idealistlər faşizmin liberal Qərb cəmiyyətinə təhlükəsi ilə bağlı həyəcan təbili çalmış və dərhal Avropanın demokratik ölkələrinin müdafiəsinə qalxmağa çağırmış, Amerikanin təhlükəsizliyinin onların mövcudluğundan asılı olduğunu bildirmişdilər.



Demokratiya tərəfdarları Misirin Təhrir meydanına toplaşıb. 1 aprel 2011

**DOĞRUDANMI BELƏ "PRAQMATİK" YANAŞMA AMERİKANIN MİLLİ MARAQLARINA XİDMƏT EDƏCƏKDİ?**

Məqalə müəllifi yazır ki, Amerika belə bir səhvi 1970-ci illərdə İranda etmişdi. Şah rejimini dəstəkləmiş, bu, nəinki inqilabın qarşısını almış, əksinə, bəlkə də inqilab yoluyla radikal qüvvələrin hakimiyyətə gəlməsinə kömək etmişdi. Ayətulla Xomeyninin hakimiyyətə gəlməsi təkcə o zamankı prezident Karter üçün başağrısına çevrilməmiş, həm də o vaxtdan bəri Yaxın Şərqdə baş verənlərə böyük təsir edir, Amerikanın strateji maraqlarına əngəl yaradır.

Obama administrasiyasında Mübarəkin istefaya getməsinə tərəfdar "idealistlər" də Amerikanın milli maraqlarını əsas gətirirdilər. Onlar deyirdilər ki, Mübarəkin laxlayan hakimiyyətini dəstəkləmək ölkədəki mötədil müsəlmanları da radikallaşdıra bilər. "İdealistlər"ə görə, Misirdə siyasi inkişafı dayandırmaq əvəzinə həmin inkişafın növbəti mərhələsinə hazırlaşmaq lazımdır.

**BU, BÜTÜN REGİONA AİD EDİLMƏLİDİR**

"Praqmatiklər" diktatorları dəstəkləməyi dayandırmağın riski haqda danışırlar və diktatorlardan sonra hakimiyyətə gələcək qüvvələrdən ehtiyat edirlər. Bu, doğru ehtiyatlanmadır. Amma biz eyni zamanda diktatorların öz xalqları ilə davasında ABŞ-ın diktatorlara yardım etməsinin riskini də nəzərə almalıyıq.

Sorğular göstərir ki, misirlilərin çoxu Amerikanı sevmir. Amma bizim onlara qarşı repressiya siyasəti yürüdən hakimiyyəti uzun müddət dəstəklədiyimizi nəzərə alanda bu, təəccüb doğurmamalıdır. Eyni zamanda o da bizə təəccüblü gəlməməlidir ki, yeni Misirdə çox adam Mübarək hakimiyyətinin yürütdüyü siyasətə qarşıdır, o cümlədən İsraillə sülhə qarşı. Eyni zamanda Misirdə ən güclü qüvvə indi radikal "Müsəlman qardaşlığı" təşkilatıdır, çünki Mübarək hakimiyyəti dünyəvi müxalifəti məhv edəndə biz buna göz yummuşuq.

Robert Kagan "Washington post" qəzetindəki məqaləsində daha sonra yazır ki, başqa ölkələrdə baş qaldıran inqilabi hərəkatlara gəlincə– məsələn, Yəmən, Bəhreyn, Suriya və Səudiyyə Ərbistanında – Amerika yenə də tələyə düşməməlidir. ABŞ düşünməməlidir ki, praqmatik yol ən düzgün yoldur - indi Amerikanın yenidən öz ideallarını müdafiə etməsinin vaxtıdır.


**AzadlıqRadousu.az-da aşığadakı bölümlər də var:**






# Tütün, piylənmə, araq - əsas qatillər

İlk dəfədir ki, dünyada xroniki və ya keçici olmayan xəstəliklərin vəziyyəti haqda qlobal hesabat çıxıb. Bu xəstəliklərə o cümlədən xərçəng, şəkər, ürək və tənəffüs orqanları xəstəlikləri daxildir. 2008-ci ilin statistikasına görə, dünyada ölən 57 milyon adamdan 36 milyonu və ya 63 faizi bu xroniki xəstəliklərdən ölüb. Bunlardan da 17 milyonu ürək xəstəliyindən, 7,6 milyonu xərçəngdən, 4,2 milyonu tənəffüs xəstəliklərindən, 1,3 milyonu şəkər xəstəliyindən ölüb.



Avstraliyada siqaret qutularına məcburi olan xəbərdarlıq formaları

Ancaq Dünya Səhiyyə Təşkilatının hesabatına görə, belə xəstəliklərdən bir çox ölümün qarşısını almaq olardı. Təşkilat bu xəstəliklərin 4 ümumi səbəbini müəyyən edir:
1. Tütün çəkmək *(ağ ciyər xərçənginin 71 faizi, tənəffüs xəstəliklərinin 42 faizi, ürək xəstəliklərinin 10 faizi tütün çəkməkdən yaranır).*
2. Fiziki fəallığın azlığı *(dünyada hər il 3,2 milyon adam fiziki passivliyinə görə ölür).*
3. Spirtli içkilərdən çox istifadə *(spirtli içkilərə aludəçilik hər il 2,5 milyon adam öldürür).*
4. Yeməyə fikir verməmək *(köklükdən, artıq çəkidən ölənlərin sayı ildə 2,8 milyona çatıb).*

Bu 4 səbəbi aradan qaldırmaq ilk növbədə hər bir insanın öz işi olsa da, hesabatda hökumətlərə məsləhət görülür ki, 10 sahəyə fikir versinlər:
1. İnsanları tütün çəkməkdən qorumaq, ictimai yerlərdə tütün çəkməyi qadağan etmək
2. Tütünün ziyanı haqda mütəmadi xəbərdarlıq etmək
3. Tütün reklamını qadağan etmək
4. Tütünə vergiləri artırmaq
5. Spirtli içkilər satışına məhdudiyyətlər qoymaq
6. Alkoqol reklamını qadağan etmək
7. Alkoqola vergiləri artırmaq
8. Ərzağın tərkibində duzun miqdarını azaltmaq
9. Ərzaqda heyvan mənşəli yağları bitki mənşəli yağlarla əvəz etmək
10. Pəhrizi və fiziki fəallığı təbliğ etmək, o cümlədən kütləvi informasiya vasitələrində.

***Elxan Nəsibli***

# Daha bir gizli video yayıldı!

## AzadliqRadiosu.az-da maraqlı videolar

- Bakıda kütləvi "zəhərlənmə".
- Müsavat Partiyasında axtarış başa çatdı
- Çernobıl zonasında yaşayanlar
- Anar Məmmədxanlının dəfn mərasimi
- GEN MMC-dən şikayətçilər Prezident Administrasiyası qarşısında
- Müsavatın neçə üzvü var?
- Ev-eşiyini itirmək təhlükəsi

# AzadlıqRadiosunda verilişlər:

<u>*Unutmayın:*</u> Siz bu verilişləri canlı dinləyə bilmirsinizsə, istənilən vaxt AzadliqRadiosu.az saytında onların səs yazılışlarına qulaq asa bilərsiniz. Bu, elə də çətin deyil.

| | |
|---|---|
| **İşdən sonra** | **14-24** |
| **Can Bakı** | **İz** |
| **Xüsusi reportaj** | **Panorama** |
| **Qaynar xətt** | **Qafqaz Qovşağı** |
| **Həmyerli** | **Oxu zalı** |
| **Tanınmışlar** | **Hər kəsin haqqı var** |
| **Şəffaflıq** | **Təbriz Ekspress** |

# Daimi rubrikalar




# “Simsiz teleqraf”

**KƏNDLİNİN DOSTU**



2 tona yaxın soğan daşıyır bu maşın...
**Yükləyib: Azər**

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa, anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,
**Xaricdən:** (+420) 602 517 052
**Görüntüləri elektron poçtla da yollamaq olar:** <u>efir@azadliqradiosu.az</u>

# AzadliqRadiosu.az®

## HotBird 13⁰E

**Kanalın adı**
**Radio Free Europe/Radio Liberty**
**Pol:** V
**Tezlik:** 12.226 Ghz
**Sürət:** 27.500 MS/s

## 24 saat

## $42^0$ E

**Kanalın adı**
**Azadliq VOA Azeri**
**Pol:** H
**Tezlik:** 11.862 Ghz
**Sürət:** 27.500 MS/s

## Qısa Dalğa

**20-21:00** **SW** 9.40 və 12.00 Mhz

## Verilişlərin vaxtı:

| | |
|---|---|
| Səhər proqramı | $08^{00}$-$10^{00}$ |
| Günorta proqramı | $12^{00}$-$13^{00}$ |
| Təkrarlar | $15^{00}$-$16^{00}$ |
| İşdən sonra | $17^{00}$-$19^{00}$ |
| Kontekst | $20^{00}$-$21^{00}$ |
| Gecə proqramı | $22^{00}$-$24^{00}$ |

## Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az
**Qaynar Xətt:** **436-77-41**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tibilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: ferqlidergi@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz